# AZƏRBAYCAN VƏ RUSIYYA QANUNVERICILIYINDƏ RUHI XƏSTƏLƏRƏ TIBBI MƏCBURI TƏDBIRLƏRIN MÜDDƏTI VƏ KONSTITUSION HÜQUQLARA TƏSIRI

Vüsalə HƏSƏNOVA*

**Xülasə:** Bu məqalədə tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsinin əsasları araşdırılır. Azərbaycan Respublikasının və Rusiya Federasiyasının Konstitusiya Məhkəməsinin təcrübəsi, həmçinin Azərbaycan Respublikasının və Rusiya Federasiyasının Cinayət Məcəlləsinin müddəaları təqdim olunur. Tibbi xarakterli məcburi tədbirlərə məruz qalan şəxslər üçün hansı konstitusiya hüquq və azadlıqları pozula bilər? Tibbi xarakterli məcburi tədbirlərin uzun müddət tətbiqi zamanı hansı problemlər yaranır kimi suallara cavablar axtarılır və onların həlli yolları təklif olunur.

***Açar sözlər** : Ruhi xəstəlik, Hüquqlar, Azadlıqlar, Müalicə, Məcburi tədbirlər .*

**Duration of Medical Compulsory Measures for Mentally Ill in Azerbaijan and Russian Legislation and Impact on Constitutional Rights**

**Abstract**: This article examines the grounds for applying mandatory measures of a medical nature. The practice of the Constitutional Court of the Republic of Azerbaijan and the Russian Federation, as well as the provisions of the Criminal Code of the Republic of Azerbaijan and the Russian Federation are presented. What constitutional rights and freedoms can be violated for persons subject to compulsory measures of a medical nature? Answers to questions such as what problems arise during the long application of mandatory measures of a medical nature are sought and ways to solve them are proposed.

***Key Words**: Insanity, Rights, Freedoms, Treatment, Coercive measures.*

## Giriş

Cinayət hüququ və cinayət prosesi sahəsində psixi pozuntu ilə bağlı məsələlər mühüm yer tutur. Ruhi xəstə elan edilmiş şəxslər törətdikləri cinayətlərə görə cinayət məsuliyyətinə cəlb edilə bilməzlər ki, bu da belə cinayət törədənlərə xüsusi yanaşmanın işlənib hazırlanması zərurətinə səbəb olur. Müasir Azərbaycan Respublikasının və Rusiya Federasiyasının qanunvericiliklərində ruhi xəstələrlə bağlı vəziyyəti tənzimləməyə yönəlmiş müəyyən mexanizmlər mövcuddur, lakin bu mexanizmlər bir sıra problemlərlə üzləşirlər. Bu məqalənin məqsədi Azərbaycan Respublikasının və Rusiya Federasiyasının qanunvericiliklərində ruhi xəstələrlə əlaqəli əsas problemləri araşdırmaq və mümkün həll yollarını təklif etməkdir.

Birincisi, ruhi xəstəlik cinayət məsuliyyətindən azad olmaq üçün əsasdır. Rusiya Federasiyasının cinayət qanunvericiliyinə uyğun olaraq, *cinayət törətdiyi zaman öz hərəkətlərinin faktiki mahiyyətini başa düşə bilməyən və ya psixi pozğunluğa görə onlara nəzarət edə bilməyən şəxs* – ruhi xəstə hesab edilir, bu müddəa Rusiya Federasiyasının Cinayət Məcəlləsinin (RF CM) 21-ci maddəsində müəyyən edilmişdir (Уголовный кодекс Российской Федерации от 13.06.1996 N 63-ФЗ (ред. от 28.12.2024) (с изм. и доп., вступ. в силу с 08.01.2025)). Bu normaya görə, ruhi xəstə şəxs cinayət məsuliyyətindən azad edilir, lakin ona qarşı tibbi xarakterli məcburi tədbirlər tətbiq oluna bilər, yəni bu müddəalar öz əksini RF CM 21-ci maddəsinin 2-ci hissəsində tapır: -"*Cinayət qanunu ilə nəzərdə tutulmuş ictimai təhlükəli hərəkəti ruhi xəstəlik vəziyyətində törətmiş şəxsə tibbi xarakterli məcburi tədbirlər təyin edilə bilər.*" (Уголовный кодекс Российской Федерации от 13.06.1996 N 63-ФЗ (ред. от 28.12.2024) (с изм. и доп., вступ. в силу с 08.01.2025)).

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (AR CM) 93.2-ci maddəsinə əsasən AR CM-nin *93.1-1-ci maddəsində nəzərdə tutulmuş şəxslərə tibbi xarakterli məcburi tədbirlər o halda təyin edilir ki, psixi pozuntu şəxsin özünə və ya başqa şəxslərə zərər yetirilməsi təhlükəsi yaradır* (https://frameworks.e-qanun.az/46/f_46947.html#_Toc89058502).

Ancaq təcrübədə insanın həqiqətən ruhi xəstə olub-olmadığını müəyyən etməkdə bəzi çətinliklər yaranır. Bu, xüsusilə psixi pozğunluğun müvəqqəti və ya qismən ola biləcəyi

* Bakı Avrasiya Universiteti, Elm, magistratura və doktorantura sektorunun müdiri, e-mail: vhasanova@yahoo.com
ORCID: 0000-0003-1897-6477

halları müəyyən edilə bilər, bu da təhlükəli hərəkit qiymətləndirilməsini və müvafiq qərarın verilməsini çətinləşdirir.

İkincisi, ruhi xəstəliyin müəyyən edilməsi problemi. Əsas problemlərdən biri ruhi xəstəliyin müəyyən edilməsi meyarlarında aydınlığın olmamasıdır. Bəzi hallarda ekspertlər psixi pozğunluqla bağlı insanın təqsir dərəcəsini fərqli şərh edə bilərlər. RF CM 5-ci maddəsi, habelə Rusiya Ali Məhkəməsinin bir sıra qərarlarında (Постановление Пленума Верховного Суда Российской Федерации от 27 ноября 2008 года № 27 "О судебной практике по делам о невменяемости") əsas əlamətləri göstərir, lakin məhkəmə icraatın təcrübəsi göstərir ki çətin ruhi xəstəlik və ya ona yaxın halların, vəziyyətlərin cavabdehin hüquq qabiliyyətini qiymətləndirilməsində çətinliklər yaranır. Şəxsin hüquq qabiliyyəti onun öz hərəkətlərinin (hərəkətsizliyinin) mahiyyətini və ictimai təhlükəsini dərk etmək və onlara nəzarət etmək qabiliyyəti əsasında müəyyən edilir.

Ruhi xəstəliyin tanınmasının açarı psixoloji və psixiatrik müayinənin nəticələridir. Lakin onun nəticələri həmişə birmənalı olmur. Məsələn, şəxsiyyət pozğunluqları və ya narkotik asılılıq zamanı bir insanın öz hərəkətlərinə nəzarət etmək qabiliyyətini müvəqqəti poza bilər, bu da mütəxəssislər üçün dəqiq səciyyə vermək çətindir.

Üçüncisi, Tibbi tədbirlərin tətbiqi ilə bağlı problemlərin olması. Qanunda nəzərdə tutulur ki, ruhi xəstəliyi olduğu müəyyən edilən şəxslər cəzalandırılmaqdansa müalicə edilməlidir. Lakin təcrübədə belə şəxslərlə bağlı hansı tədbirlər görülməlidir, müalicənin nə dərəcədə effektli olduğu suallar yaranır.

RF CM 97-ci maddəsinə əsasən (Уголовный кодекс Российской Федерации от 13.06.1996 N 63-ФЗ (ред. от 28.12.2024) (с изм. и доп., вступ. в силу с 08.01.2025)), o şəxslər, hansılar ki ruhi xəstələr kimi tanınıblar, onlara məcburi tibbi xarakterli tədbirlər tədbiq olunur, o cümlədən də psixiatrik stasionar müalicə. Bununla belə, tez-tez adekvat qayğı və müalicəni təmin etmək üçün kifayət qədər ixtisaslaşdırılmış müəssisələrin və resursların olmaması problemləri qündəmdədir. Bu, belə şəxslərin qeyri-müəyyən müddətə psixiatriya müəssisələrində qalması ilə nəticələnə bilər ki, bu da onların hüquqlarını pozur (УК РФ Статья 97. Основания применения принудительных мер медицинского характера \ КонсультантПлюс).

RF CM uyğun olaraq - Ruhi xəstə kimi tanınan şəxsə psixi pozğunluğun xarakterindən və şiddətindən asılı olaraq tibbi xarakterli məcburi tədbirlər təyin edilə bilər. RF CM 97-ci maddəsini, Rusiya Federasiyası Konstitusiya Məhkəməsinin qərarına müraciət edərək məcburi tibbi xarakterli tədbirlərinin tətbiq edilməsinin əsaslarını müəyyən edir (Постановление Конституционного Суда РФ от 24.11.2023 N 54-П «По делу о проверке конституционности пунктов «а», «в» части первой статьи 97, статей 99 и 100, частей первой и третьей статьи 102 Уголовного кодекса Российской Федерации в связи с запросами Салехардского городского суда Ямало-Ненецкого автономного округа»). Sual yaranır ki, müalicə müddəti (vaxt baxımından, tibbi xarakterli məcburi tədbirlərə məruz qalan şəxsin nə qədər qalmalı olacaq) necə müəyyən edilməlidir. Nəticədə ruhi xəstələrin psixiatriya müəssisələrində qalma müddətinin müəyyən edilməsi problemi yaranır. Bəzi hallarda, vəziyyətləri yaxşılaşsa belə, onlar uzun müddət belə müəssisələrdə saxlanıla və bununla da insanın azadlıq və ədalətli rəftar hüquqları pozulur. Digər hallarda, bir şəxs psixi pozğunluğun arxasında gizlənərək, ağır cəza çəkməkdən yayınmağa və onu daha yüngül cəza ilə əvəz etməyə çalışdıqda, cinayət hüququnun normalarına məhəl qoymamaq mümkündür.

Dördüncüsü, psixiatrik müayinə və onun obyektivliyi. Ruhi xəstəliyin qiymətləndirilməsi sahəsində əsas məsələlərdən biri psixiatrik müayinənin dəqiqliyi və obyektivliyidir. Məhkəmə psixiatriya sistemində iş yükünün artması şəraitində ekspertlər öz qənaətlərində səhvlərə yol verə bilərlər ki, bu da qeyri hüquqi və qeyri etik nəticələrə gətirib çıxarır. Çox vaxt olur ki, eyni tibbi problem müxtəlif müəssisələrdə və müayinələrdə fərqli qiymətləndirilir ki, bu da ciddi məhkəmə səhvlərinə səbəb ola bilər. Psixiatrik müayinə

yüksək ixtisaslı mütəxəssislər tələb edir və belə kadr çatışmazlığı şəraitində bəzi hallarda ekspertlər şübhəlilərin, təqsirləndirilən şəxslərin, müttəhimlərin, məhkumların və cəza çəkən şəxslərin (yəni tibbi xarakterli məcburi tədbirlərə - TXMT) vəziyyətini həmişə obyektiv qiymətləndirə bilmirlər.

**Ruhi xəstə insanların psixiatriya müəssisələrində qalma müddəti problemi.**

Cinayət hüququnda mühüm məqamlardan biri ruhi xəstə kimi tanınan şəxslərin psixiatriya müəssisələrində qalma müddəti problemidir. Rusiya Federasiyasının qanunvericiliyinə görə, belə şəxslər cinayət məsuliyyətindən azad edilir, lakin onlara qarşı tibbi xarakterli məcburi tədbirlər, o cümlədən psixiatriya xəstəxanalarında stasionar müalicə tətbiq edilir. Lakin belə qurumlarda qalma müddəti ən çətin və müzakirə olunan məsələlərdən biri olaraq qalır. Təcrübədə elə vəziyyətlər yaranır ki, ruhi xəstə elan edilmiş şəxslər psixiatriya müəssisələrində onların psixi pozğunluğunun müalicəsi üçün lazım olandan xeyli uzun müddət saxlanıla bilər. Bu məqalə ruhi xəstə şəxslərin psixiatriya müəssisələrində qalma müddəti ilə bağlı əsas problemləri, habelə bu problemlərin həlli yollarını araşdırır. Beləliklə, onlara bir-bir baxaq:

**1. Psixiatriya müəssisələrində qalma müddətinin qanunvericilik və hüquqi aspektləri.**

AR CM 94-cü maddəsinə əsasən –*"Psixi pozuntusu olan şəxslərə tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi məqsədi AR CM-nin 93.1-1-ci maddəsində göstərilən şəxslərin müalicə olunması və ya psixi vəziyyətinin yaxşılaşdırılmasından, habelə həmin şəxslər tərəfindən yeni cinayət törədilməsinin qarşısının alınmasından ibarətdir"* (https://frameworks.e-qanun.az/46/f_46947.html#_Toc89058502).

RF CM 97-ci maddəsinə əsasən - ruhi xəstə kimi tanınan şəxslərə psixiatriya xəstəxanalarında stasionar müalicə də daxil olmaqla tibbi tədbirlər təyin edilə bilər. Qanun bu cür müalicənin psixi sağlamlığın bərpasına yönəldilməsini nəzərdə tutur ki, şəxs yenidən bacarıqlı ola - yəni hüquq qabiliyyətini bərpa edib və öz hərəkətlərinə görə məsuliyyət daşıya bilsin. Lakin aydın müalicə müddətləri olmadığından belə şəxslərin psixiatriya müəssisələrində həddindən artıq qalmaları problemi yaranır.

RF CM 97-ci maddəsinin 1-ci hissəsinə əsasən (tibbi xarakterli məcburi tədbirlərin tətbiqi üçün əsasları) - Tibbi xarakterli məcburi tədbirlər məhkəmə tərəfindən aşağıdakı şəxslərə təyin edilə bilər (УК РФ Статья 97. Основания применения принудительных мер медицинского характера \ КонсультантПлюс):

a) Cinayət Məcəlləsinin xüsusi hissəsinin maddələrində nəzərdə tutulmuş hərəkətləri ruhi xəstəlik vəziyyətində törədənlər;

c) cinayət törətmiş və ağlını istisna etməyən psixi pozğunluqlardan əziyyət çəkənlər (Уголовный кодекс Российской Федерации от 13.06.1996 N 63-ФЗ (ред. от 28.12.2024) (с изм. и доп., вступ. в силу с 08.01.2025)).

Buradan belə nəticə çıxır ki, - *"Ruhi xəstə kimi tanınan şəxsə psixi pozuntunun xarakterindən və şiddətindən asılı olaraq tibbi tədbirlər, o cümlədən psixiatriya stasionarında məcburi müalicə təyin oluna bilər"*.

Rusiya təcrübəsində ruhi xəstə kimi tanınan şəxslərin psixiatriya stasionar xəstəxanalarında qalma müddəti ilə bağlı problem mövcuddur ki, bu da belə şəxslərin tibb müəssisələrdə qalma müddətinə nəzarət mexanizmlərinin olmaması ilə bağlıdır. Qanunverici insan hüquqlarının, o cümlədən azadlıq və şəxsi toxunulmazlıq hüquqlarının pozulmasına gətirib çıxara bilən bu cür tədbirlərin həyata keçirilməsi üçün dəqiq vaxt çərçivələri müəyyən etmir.

Onu da qeyd etmək lazımdır ki, Yamalo-Nenets Muxtar Okruqunun Salekhard Şəhər Məhkəməsinin 16 mart 2023-cü il tarixli Qətnaməsi ilə apellyasiya şikayəti olub, burada məhkəmə iş üzrə icraatı dayandırıb və Rusiya Federasiyasının Konstitusiya Məhkəməsinə sorğunun göndərilməsi barədə qərar qəbul edib, burada ərizəçi (Məhkəmə) RF CM 97-ci

maddənin 1-ci hissənin “a” bəndin, 99-ci maddənin 1-ci hissənin, 102-ci maddənin 1-ci və 3-cü hissələrin yoxlanılmasını xahiş edir və Rusiya Federasiyasının Konstitusiyasının 18, 19 (1-ci hissə), 22 (1-ci hissə), 38 (1-ci hissə) və 55-ci (3-cü hissə) maddələrinə uyğun oldugunu, ictimai təhlükəli əməl törətmiş və tibbi xarakterli məcburi tədbirlərin tətbiqi üçün maksimum müddətləri nəzərdə tutmayan, habelə uzun müddət ərzində bir insana zərər vurduqdan sonra hüquqların həcminin artırılmasına imkan verilən hissədə. Bu müraciətdə bəndlər sorğulanıb. RF CM 97-ci maddənin 1-ci hissəsinin "a" və "c" bəndləri Rusiya Federasiyasının Konstitusiyasına uyğunluğu baxımından. Rusiya Federasiyasının Konstitusiya Məhkəməsi RF CM 97 maddənin 1-ci hissəsinin "a" və "c" bəndlərinin, maddə 99 və maddə 100, maddə 102 1-ci və 3-cü hissələrini tanıdı, Konstitusiyaya ziddiyatın yaranmamasının vurguladı, bu, RF CM xüsusi hissəsinin maddələri tərəfindən ictimai həbsxananın, ictimai həbs olunmayan şəxslərə, əqli pozğunluqda, əqli pozğunluğu istisna olmaqla, əqli pozğunluqdan irəli gəldikdə, buna görə də Bu şəxslərin özləri və başqalarına, digərlərinə, digər əhəmiyyətli zərərlərə səbəb olan, digər əhəmiyyətli zərərlərə səbəb olmaq, icbari tibbi yardım tədbirləri (məcburi psixiatrik baxım), bu tədbirlərin müəyyən edilmiş əsasları aradan qaldırılmadıqda, mövcud hüquqi tənzimləmə sistemindəki konstitusiya və hüquqi mənasına görə bu normalar (https://www.consultant.ru/document/cons_doc_LAW_462923/#dst100061):

- həmin şəxslərin psixi pozğunluğunun və psixi vəziyyətinin xüsusiyyətlərini nəzərə almaqla, onlara xitam verilməsi, uzadılması və ya dəyişdirilməsi üçün mümkün əsasları müəyyən etmək və onların tətbiqi şəraitinin dəyişməsi ilə bağlı riskləri qiymətləndirmək üçün psixiatrlar komissiyası tərəfindən aparılan dövri müayinə zamanı bu tədbirlərin yalnız məhkəmənin qərarı ilə davam etdirilməsinə icazə vermək (https://www.consultant.ru/document/cons_doc_LAW_462923/#dst100061);
- stasionar şəraitdə psixiatrik yardım göstərən tibb təşkilatının müdiriyyətinin, habelə barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə nəzarət edən cinayət-icra müfəttişliyinin, habelə barəsində tibbi xarakterli məcburi tədbir tətbiq edilmiş şəxsin, onun qanuni nümayəndəsinin və (və ya) yaxın qohumunun tibbi xarakterli məcburi tədbirlərin növünün dəyişdirilməsi və ya onların psixi vəziyyətinin dayandırıldığı tarixdən etibarən müddətin dəyişdirilməsi barədə tələbi ilə məhkəmənin əvvəlki qərarının vaxtından asılı olmayaraq belə tədbirlərin təyin edilməsi, uzadılması və ya dəyişdirilməsi haqqında;
- tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə xitam verilməsini nəzərdə tutmamalıdır (o cümlədən cəza müddəti başa çatdıqda və ya cəza ilə bərabər tibbi xarakterli məcburi tədbirlər təyin edildikdə, şərti cəza halında sınaq müddəti başa çatdıqdan sonra) yalnız onların tətbiqi müddətinə görə, bu cür hərəkətlər onun ruhi və ya psixi pozğunluğunun qarşısının alınması ilə şərtlənir RF CM Xüsusi hissəsinin maddələrində əsas göstərilmişdir. (https://www.consultant.ru/document/cons_doc_LAW_462923/#dst100061).

**2. Ruhi xəstə şəxslərin psixiatriya müəssisələrində qalma müddəti ilə bağlı problemlər.**

Burada insan hüquqlarının pozulmasını qeyd etmək istərdim. Ruhi xəstə insanların psixiatriya müəssisələrində qalma müddətinin əsas problemlərindən biri onların hüquqlarının pozulmasıdır. Ruhi xəstə olduğu müəyyən edilən şəxs müvafiq nəzarətin olmaması səbəbindən ağlabatan müddətdən sonra azadlığa buraxıla bilmirsə, vəziyyətinin yaxşılaşmasına baxmayaraq, o, qeyri-müəyyən müalicəyə məruz qalır. Bu, hər iki ölkənin (AR Konstitusiyasının 28-ci maddəsi, RF Konstitusiyasının 22 və 27 maddələri) azadlıq hüququnun pozulmasına gətirib çıxarır və həddindən artıq mualicə və təcrid problemini yarada bilər (https://e-qanun.az/framework/897; http://www.constitution.ru/10003000/10003000-4.htm).

**Aydın nəzarət sisteminin olmaması.** Psixi sağlamlıq müəssisələrində qalma müddətini tənzimləyən sistemlər müalicə ehtiyacını xəstənin hüquqları ilə balanslaşdırmaq üçün çox vaxt qeyri-mümkündir, kifayyət deyil. Təcrübədə belə olur ki, ruhi xəstə kimi tanınan

şəxslərin vəziyyətləri xeyli yaxşılaşsa belə, psixiatriya xəstəxanasında müalicəni davam etməli olurlar. Bununla belə, qalma müddətinin nəzərdən keçirilməsi üçün aydın prosedurun olmaması bu cür şəxslərə qarşı lazımsız təcrid və qeyri-mütənasib tədbirlərə səbəb ola bilər.

**Psixiatriya müəssisələrinin qeyri-kafi səmərəliliyi.** Rusiyada ixtisaslaşdırılmış psixiatriya müəssisələrinin çatışmazlığı var ki, bu da ruhi xəstə elan edilən xəstələrin effektiv və operativ müalicəsini mümkünsüz edir. Həddindən artıq sıxlıq və resursların çatışmamazlığı ilə bağlı problemlər xəstələrin sağalmaları üçün əlverişli olmayan şəraitdə müəssisələrdə saxlanıla bilməsi deməkdir. Bundan əlavə, bəzi müəssisələrin effektiv müalicəni təmin etmək üçün kifayət qədər resursları olmaya bilər ki, bu da xəstənin xəstəxanada qalma müddətini uzadılmasına qətirib çıxardır.

**3. Praktiki problem: Qalma müddətinə dair məhkəmə və tibbi qərar.**

Problemin həllində vacib məqamlardan biri də məcburi müalicə tədbirinə yenidən baxılması üçün mütəmadi olaraq məhkəmə prosedurlarının aparılmasının zəruriliyidir. RF CM-nin 102-ci maddəsində deyilir ki, tibbi tədbirin təyin edilməsindən bir il keçdikdən sonra məhkəmə bu tədbirə xitam vermək və ya dəyişdirmək imkanını nəzərdən keçirməlidir. RF CM-nin 102-ci maddəsi 2-ci hissəsi - Məcburi müalicənin ilk uzadılması müalicənin başlanmasından altı ay sonra həyata keçirilə bilər, sonra məcburi müalicə hər il uzadılır (Уголовный кодекс Российской Федерации от 13.06.1996 N 63-ФЗ (ред. от 28.12.2024) (с изм. и доп., вступ. в силу с 08.01.2025)).

AR CM-nin 98.2. maddəsinə əsasən – *"Psixi pozuntusu ilə əlaqədar barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş şəxs bu tədbirin tətbiqinin ləğv edilməsi və ya dəyişdirilməsi məsələsinin həll edilməsi məqsədi ilə altı ay müddətində bir dəfədən az olmayaraq həkim-psixiatr komissiyasında baxışdan keçirilməlidir. Tibbi xarakterli məcburi tədbirlərin ləğv edilməsi və ya dəyişdirilməsi üçün əsaslar olmadıqda məcburi müalicəni həyata keçirən müəssisənin müdiriyyəti məcburi müalicənin müddətinin uzadılması haqqında məhkəməyə öz rəyini təqdim edir. Məcburi müalicənin ilk dəfə uzadılması müalicənin başlandığı gündən altı ay keçdikdən sonra həyata keçirilir, bundan sonra məcburi müalicə müddətinin uzadılması hər il həyata keçirilir".* (https://frameworks.e-qanun.az/46/f_46947.html#_Toc89058502).

RF CM-nin 102-ci maddəsi: -*"Tibbi tədbirin təyin edilməsi haqqında qərar ruhi xəstə kimi tanınan şəxslərin və ya onların qanuni nümayəndələrinin ərizəsi, habelə məhkəmə orqanının təşəbbüsü ilə məhkəmə tərəfindən ləğv edilə bilər."* (Уголовный кодекс Российской Федерации от 13.06.1996 N 63-ФЗ (ред. от 28.12.2024) (с изм. и доп., вступ. в силу с 08.01.2025)).

AR CM-nin 98.1. maddəsinə əsasən: -*"Psixi pozuntusu olan şəxslərə təyin edilmiş tibbi xarakterli məcburi tədbirlərin tətbiqinin uzadılması, dəyişdirilməsi və ya ləğv edilməsi həkim-psixiatr komissiyasının rəyi əsasında məcburi müalicəni həyata keçirən tibb müəssisəsinin müdiriyyətinin təqdimatı ilə məhkəmə tərəfindən həyata keçirilir*" (https://frameworks.e-qanun.az/46/f_46947.html#_Toc89058502).

Lakin reallıqda belə baxışlar heç də həmişə vaxtında aparılmır və xəstələr qeyri-müəyyən müddətə psixiatriya müəssisələrində qalırlar. Bu, xəstələrin hüquqlarını pozan bütün hallar nəzərə alınmadan müəssisələrdə qalma müddəti ilə bağlı qərarların verilə biləcəyi hüquqi boşluq yaradır.

**4. Problemin mümkün həlli yolları. Qalma müddətini nəzərdən keçirmək üçün aydın bir sistemin hazırlanması.**

RF CPM 445-ci maddəsinə əsasən: - "stasionar şəraitdə psixiatrik yardım göstərən Tibb Təşkilatı Administrasiyasının tibbi rəylə təsdiq edilmiş vəsatətinə, habelə tibbi xarakterli məcburi tədbir tətbiq olunan şəxsin, onun müdafiəçisinin və ya qanuni nümayəndəsinin vəsatətinə əsasən məhkəmə bu şəxsə məcburi tibbi tədbir tətbiq edilməsini növbəti 6 ay müddətinə dayandırır, dəyişdirir və ya uzadır" (УПК РФ Статья 445. Прекращение,

изменение и продление применения принудительной меры медицинского характера \ КонсультантПлюс).

AR CM 98.2. maddəsinə əsasən: -*"Psixi pozuntusu ilə əlaqədar barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş şəxs bu tədbirin tətbiqinin ləğv edilməsi və ya dəyişdirilməsi məsələsinin həll edilməsi məqsədi ilə altı ay müddətində bir dəfədən az olmayaraq həkim-psixiatr komissiyasında baxışdan keçirilməlidir. Tibbi xarakterli məcburi tədbirlərin ləğv edilməsi və ya dəyişdirilməsi üçün əsaslar olmadıqda məcburi müalicəni həyata keçirən müəssisənin müdiriyyəti məcburi müalicənin müddətinin uzadılması haqqında məhkəməyə öz rəyini təqdim edir. Məcburi müalicənin ilk dəfə uzadılması müalicənin başlandığı gündən altı ay keçdikdən sonra həyata keçirilir, bundan sonra məcburi müalicə müddətinin uzadılması hər il həyata keçirilir"* (https://frameworks.e-qanun.az/46/f_46947.html#_Toc89058502).

Ruhi xəstələrin psixiatriya müəssisələrində qalma müddəti problemini həll etmək üçün müalicə müddətinə yenidən baxılması üçün daha effektiv sistem yaratmaq lazımdır. Xəstənin vəziyyətini və sonrakı müalicə ehtiyacını qiymətləndirməyə yönəlmiş müntəzəm məhkəmə iclasları məcburi olmalı və ən azı altı ayda bir dəfə, idealda hər kvartalda (yəni bir il ərzində azı iki dəfə, idealda isə dörd dəfə) keçirilməlidir. Stasionar şəraitdə psixiatrik yardım göstərən tibb təşkilatının müdiriyyətinin təqdimatı əsasında və habelə tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə nəzarət edən cinayət-icra müfəttişliyinin, habelə onun vəkilinin və qanuni nümayəndəsinin iştirakı ilə müalicə alan şəxsin tələbi ilə - müalicənin dinamikasını, müalicənin müsbət və ya mənfi nəticələrini, eləcə də müalicənin uğursuzluğunun, eləcə də müalicənin nəticəsinin nə olduğunu öyrənmək üçün aydın mexanizm və qrafikə müraciət etmək lazım oldugu görünür. Psixiatriya müəssisəsinin rəhbərliyini onun müalicəsinin uzadılması və ya dayandırılması ilə bağlı obyektiv və vaxtında qərar qəbul etməkdə maragı olmalıdır. Şəffavlıgı təmin etmək üçün, bu tədbirlər bütün komissiya üzvləri və hər bir maragı olan tərəflərin iştirakı ilə birqə protokolda və videokameranın qarşısında, çəkilişi qeydə alınaraq aparılmalıdır. Bu, tibbi tədbirlərin dəyişdirilməsi və vəziyyəti yaxşılaşan şəxslərin azad edilməsi ilə bağlı məsələlərin operativ həllinə kömək edəcək.

**Psixi sağlamlıq xidmətinin yaxşılaşdırılması.** Müalicənin daha keyfiyyətli olmasını təmin etmək üçün psixiatriya müəssisələrinin və mütəxəssislərin sayı artırılmalıdır ki, bu da ruhi xəstə kimi tanınan şəxslərin daha effektiv müalicəsini həyata keçirməyə imkan verəcək. Müəssisələrdə şəraitin yaxşılaşdırılması vacibdir ki, onlar həqiqətən xəstələrin sağalmasına kömək etsin və uzunmüddətli təcrid məkanına çevrilməsin.

**Alternativ müalicə üsullarından istifadə.** Xəstələr üçün daha təsirli və daha az məhdudlaşdırıcı ola biləcək alternativ müalicə üsulları da hazırlanmalı və həyata keçirilməlidir. Bu, ambulator müalicəni, yeni psixoterapevtik metodların və texnologiyaların tətbiqini əhatə edə bilər ki, bu da psixi pozğunluğu olan insanların xəstəxanalarda uzun müddət qalmamasına imkan verəcəkdir.

**Nəticə**

Azərbaycan Respublikasının və Rusiya Federasiyasının qanunvericiliklərində ruhi xəstələrlə bağlı problemlər çoxşaxəlidir. Ruhi xəstə şəxslərin psixiatriya müəssisələrində qalma müddəti problemi aktual olaraq qalır və kompleks yanaşma tələb edir. Ruhi xəstəliyin müəyyən edilməsi meyarlarının kifayət qədər aydın olmaması, tibbi tədbirlərin tətbiqi ilə bağlı problemlər, habelə psixiatrik müayinələrin qeyri-obyektivliyi bu sahədə hüquq-mühafizə orqanlarını xeyli çətinləşdirə bilər. Bu problemlərin səmərəli həlli üçün qanunvericiliyin təkmilləşdirilməsi, məhkəmə-psixiatriya ekspertizası işinin təkmilləşdirilməsi və ruhi xəstə kimi tanınan şəxslərə adekvat tibbi xidmət göstərilməsini təmin etmək lazımdır. Qalma (mualicə) müddətinin qeyri-müəyyənliyi və müalicə tədbirlərinin monitorinqi üçün effektiv sistemin olmaması xəstələrin konstitusiya hüquqlarının pozulmasına gətirib çıxara və onların reabilitasiyasını çətinləşdirə bilər. Bu problemi həll etmək üçün qanunvericiliyi

təkmilləşdirmək, yoxlama mexanizmini hazırlamaq, psixiatriya müəssisələrinin rəhbərliyini tez bir zamanda müsbət nəticələr əldə etməyə həvəsləndirmək, psixiatriya müəssisələrinin sistemini inkişaf etdirmək və müalicə müddətlərinə baxılması üçün aydın prosedur yaratmaq lazımdır.

## İSTİNADLARIN SİYAHISI


Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (Məcəllə Azərbaycan Respublikasının 1999-cu il 30 dekabr tarixli 787-IQ nömrəli Qanunu ilə təsdiq edilmişdir) - https://frameworks.e-qanun.az/46/f_46947.html#_Toc89058502

Уголовный Кодекс Российской Федерации от 13.06.1996 N 63-ФЗ (ред. от 28.12.2024) (с изм. и доп., вступ. в силу с 08.01.2025)

Постановление Пленума Верховного Суда Российской Федерации от 27 ноября 2008 года № 27 "О судебной практике по делам о невменяемости"

Постановление Конституционного Суда РФ от 24.11.2023 N 54-П "По делу о проверке конституционности пунктов "а", "в" части первой статьи 97, статей 99 и 100, частей первой и третьей статьи 102 Уголовного кодекса Российской Федерации в связи с запросами Салехардского городского суда Ямало-Ненецкого автономного округа"

https://www.consultant.ru/document/cons_doc_LAW_462923/#dst100061

https://www.consultant.ru/document/cons_doc_LAW_34481/

УК РФ Статья 97. Основания применения принудительных мер медицинского характера \ КонсультантПлюс

УПК РФ Статья 445. Прекращение, изменение и продление применения принудительной меры медицинского характера \ КонсультантПлюс

https://e-qanun.az/framework/897

http://www.constitution.ru/10003000/10003000-4.htm